# “Sibir: Moment İstinı” qəzetinin xüsusi buraxılışı bütünlüklə Azərbaycana həsr edilib

**“Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva “2015-ci ilin adamı” mükafatına layiq görülüb”. “Sibir: Moment İstinı” qəzetinin cari ilin 5 may tarixli sayındakı “Sodrujestvo” informasiya bülletenində dərc edilən ilk məqalənin sərlövhəsi belədir. Qeyd edək ki, bülleten bütünlüklə Azərbaycana, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunub.**



2016, 5 мая
№ 1 (337)
СИБИРЬ: МОМЕНТ ИСТИНЫ
Legalitas regnorum fundamentum Законность - основа государства
Наш сайт http://sibirmi.ru/
Мехрибан Алиевой вручена премия «Человек 2015 года»
Таир МАМЕДОВ: «Сокровищница чрезвычайно ценных идей» Политическое наследие Гейдара Алиева в научно-философских взглядах академика Рамиза Мехтиева.
Стр. 10-11
Виталий МУХА: «Стране и партии очень не повезло с Горбачевым!»
Стр. 19-21
Хроника городского ГАИ
Стр. 24
Читайте специальный выпуск «Содружество» на стр 7-18.

Məqalədə qeyd olunur ki, ANS Şirkətlər Qrupu və Milli Qəhrəman Çingiz Mustafayev adına Fondun “İlin adamı” mükafatı ilə ən layiqli şəxsiyyət təltif olunub. Çünki Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond ölkə vətəndaşlarının ən ağır şəxsi problemlərlə müraciət etdiyi təşkilatdır. Cəmiyyətdə xeyriyyəçilik standartlarını müəyyən edən Mehriban Əliyevanın fəaliyyəti nəticəsində bir çox insanlar öz arzularını həyata keçirə biliblər.



Məqalədə həmçinin deyilir ki, Mehriban Əliyevanın Təşkilat Komitəsinin sədri olduğu Birinci Avropa Oyunları yüksək səviyyədə təşkil edilib və Oyunları seyr edən hər kəs öz ölkəsi, öz Prezidenti, öz birinci xanımı üçün böyük qürur hissi duyub.

Multikultural dəyərlərə gəlincə, Mehriban Əliyeva öz fəaliyyəti ilə istər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda multikulturalizm ənənələrini təbliğ edir. Bütün bunlar barədə öz çıxışında ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayev danışıb.

Məqalədə həmçinin Mehriban xanımın çıxışının tam mətni verilib. Həmin çıxışda o, Milli Qəhrəman Çingiz Mustafayev adına Fonda və ANS Şirkətlər Qrupuna onun fəaliyyətinin yüksək qiymətləndirilməsi üçün dərin minnətdarlığını bildirib və vurğulayıb ki, bu mükafatı təkcə öz uğuru yox, həm də sadalanan uğurlarda əməyi olan Heydər Əliyev Fondunun hər bir işçinin nailiyyəti kimi qəbul edir.

“Sibir: Moment İstinı” nəşri ölkənin birinci xanımının çıxışından sitat gətirir: “Heydər Əliyev Fondunun bir çox gözəl ənənələri var və onların arasında ən vacibi, hesab edərəm ki, xeyriyyəçilik ənənələridir və bu ənənələrə əsaslanaraq mənə verdiyiniz pul mükafatını Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinə keçirmək fikrindəyəm”. Öz çıxışında Mehriban Əliyeva bildirib ki, onun komandasının ən böyük nailiyyəti Azərbaycan xalqının hörmət və etibarını qazanmasıdır.

**(davamı 3-cü səhifədə)**